

Həmsöhbətimiz Şirvan şəhər uşaq musiqi məktəbinin direktoru Mübariz Dadaşovdur. Onunla sinif otaqlarını gəzir, görülən işlər barədə fikirlərimizi bölüşürük. Bu məlumatları diqqətinizə verəcəyik. Amma əvvəlcə direktor barədə...

# Uğurlarımız çox olub...

Dadaşov Mübariz Ərəb oğlu 1954-cü ildə Əli-Bayramlı rayonunda anadan olub. 1965-ildə orta məktəbdə oxuya-oxuya həm də musiqi məktəbinə gedib.Tar ixtisası üzrə 1969-cu ildə müəllim çatışmadığı üçün onun əlaçı olduğunu nəzərə alaraq məktəbə müəllim təyin ediblər.

Təhsilini Sumqayıtda S.Hacıbəyov adına musiqi texnikumunda davam etdirib. Sonradan yenə də Əli-Bayramlıya qayıdıb, müəllimlik fəaliyyətilə məşğul olub. Tar müəllimi işləyib. O burada həm də xalq çalğı alətləri şöbəsinin rəhbəri işləyib. Məktəbin tədris işləri üzrə direktor müavini olub.

Bütün bu illər ərzində onu bir arzu heç vaxt tərk etməyib. Ali təhsil almaq! Elə bu istəklə Bakı Dövlət Konservatoriyasının qapılarını döyüb. 1981-ci ildə 9 imtahanı uğurla verərək qəbul olunub. Əyani oxuyub. V kursda oxuyarkən rektor Elmira Abbasovanın icazəsi ilə həm təhsilini davam etdirib, həm də Bakıda 25 nömrəli musiqi məktəbində tar ixtisası üzrə dərs deyib.

1986-cı ildə konservatoriyanı bitirib Əli-Bayramlıya qayıdıb, burada tar müəllimi kimi çalışıb, dərs hissə müdiri olub. 1993-cü il noyabrın 1-dən musiqi məktəbinin direktorudur.

Bu illər ərzində uğurlarımız çox olub,- deyə Mübariz müəllim kollektivin fəaliyyəti barədə danışır. O deyir ki, əvvəlcə istərdim məktəbin yaranma tarixi barədə məlumat verəm.

Bu, 48 il əvvələ təsadüf edir. Belə ki, məktəb 1961-ci ildə yaranıb. O vaxt beş ixtisas üzrə dərs keçilib. Onda mən özüm də şagird olmuşam. 70-ci illərdə məktəbin 100-dən artıq müəllimi, 900-dək şagirdi olub. Amma nədənsə bu qədər kontingent olsa da ikinci məktəb olmayıb.

Mən say etibarı ilə məktəbin səkkizinci direktoruyam. Hazırda bizdə 498 nəfər şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 97 müəllim məşğul olur. Bunların 92 faizi öz yetirmələrimizdir. Məzunlarımızın xoş sorağı respublikamızın ayrı-ayrı mədəniyyət müəssisələrindən gəlir.

Təvazökarlıqdan uzaq olsa da qeyd edim ki, bu uğurların qazanılmasında mənim də mühüm rolum olub. İstedadların aşkara çıxarılmasında, onların gələcək inkişafı qayğısına qalınmasında, maddi-texniki bazanın möhkəmləndirilməsində mənim bilavasitə təşəbbüsüm və rəhbərliyim altında çox işlər görülüb.

Ancaq bir arzum hələ də ürəyimdə qalıb. Çox istərdim ki, Şirvanda ikinci bir musiqi məktəbi açılsın. Bu boyda şəhərin vur-tut bir musiqi məktəbi var. Halbuki Şirvanda musiqiyə meylli o qədər yeniyetmə, uşaq var ki, onları yerləşdirə bilmirik. Çünki siniflərin sayı buna imkan vermir. Digər tərəfdən, təhsillərini başa vuran məzunlarımızı müvafiq işlə təmin edə bilmirik...



S.Hacıyev Fəxri Fərmanı təqdim edərkən

Yaxşı xatırlayıram. 2003-cü ildə zona müşavirəsi zamanı nazir müavini hörmətli Ədalət müəllim (Ədalət Vəliyev) məktəbimizə baş çəkdi. Onu nazirliyin məsul əməkdaşları, ətraf rayonların mədəniyyət və turizm şöbələrinin, kitabxana, muzey, klub və digər mədəni-maarif müəssisələrinin rəhbərləri də müşayiət edirdi.

Onlar başqa müəssisələrin işi ilə də maraqlanırdılar. O zaman Ədalət müəllim məktəbimizin ümumi fəaliyyətindən razı qaldı və kollektivimizi digər rayonlara nümunə kimi göstərdi. Təbii ki, bu bizim üçün çox xoş oldu. Amma bizi daha çox fərəhləndirən Ədalət müəllimin söhbəti oldu. O, söz verdi ki, gələcəkdə respublika səviyyəli müsabiqələrdən birini şəhərinizə saldırmağa çalışacağam. Həmişə olduğu kimi Ədalət müəllim yenə də vədinə sadiq çıxdı.

Elə həmin ilin yayında milli-musiqi alətləri üzrə müsabiqə Əli-Bayramlıya (Şirvana - T.) salındı. Müsabiqə yüksək səviyyədə təşkil olundu. Həmin müsabiqədə bizim tar müəllimimiz ikinci dərəcəli diploma və pul mükafatına layiq görüldü.

2005-ci ildə 5-ci sinif şagirdi Elşad Məmmədov həmin nailiyyəti təkrar etdi və qaliblərin Bakıda R.Behbudov adına Mahnı Teatrında təşkil olunan konsertinə qoşuldu.

2009-cu ildə tar müəllimimiz Mingəçevirdən 3-cü dərəcəli diplom və pul mükafatı ilə qayıtdı.

Bundan əlavə, uşaqlarımız Astara və Şəmkirdə təşkil olunan müsabiqələrdə də öz fəallıqları ilə fərqlənirlər.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən uşaq folklor müsabiqəsində isə "Çılğın nağaraçılar" ansamblımız ikinci yeri tutdu.



Çıxış edir məktəbin xor kollektivi

Azdramada yekun konsertində iştirak etdi və Fəxri Fərmana və YUNESKO-nun şəhadətnaməsinə layiq görüldü...

Son vaxtlar elə il olmayıb ki, uşaqlarımız festival və müsabiqədən əliboş qayıtsınlar.

Bu uğurların qazanılması təbii ki, ilk növbədə qabaqcıl müəllimlərimizin adı ilə bağlıdır. Onlardan Şəfaqət Hacıyevanın, Kəmalə Qafarovanın, Yaqut Nəcəfovanın, Güllü Əfsərovanın, Zərifə Cavadovanın, Cəfər Qafarovun, Daşqın Gülmalıyevin, İlham Salmanovun, Sədaqət Əliyevanın, Mahir Fərəcovun, Mürvət Verdiyevin, Rəhman Həsənovun, Telman Qurbanovun, Məhəbbət İsmayılovanın, İlhamə Məmmədovanın, Əbülfət İsmayılovun və başqalarının adlarını çəkmək istərdim.



"Çılğın nağaraçılar" ansamblı

Yuxarıda Şirvanda ikinci bir musiqi məktəbinin açılması ilə bağlı arzumun hələ də həyata keçmədiyini bildirdim. Amma deyəsən bir çox istəklərim kimi bu arzuma da çatacağam.

Belə ki, "2009- 2013-cü illər üçün Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə İnkişaf Proqramı"na uyğun olaraq 2013-cü ildə Şirvanda yeni bir musiqi məktəbinin tikintisinə başlanılmışdır.

Bu da bizə istedadlı uşaqların inkişafı qayğısına qalınmasında, məzunlarımızın işlə təmin olunmasında əlavə imkanlar açacaqdır..

Sonda Şirvan Şəhər İcra Hakimiyyəti başçısı Mərdan Camalovun, Respublika Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin mədəniyyətimizin inkişafına göstərdiyi qayğı və diqqətə görə kollektivimizin adından dərin təşəkkürümü bildirmək istərdim. Bu qayğı bizi daha yaxşı çalışmağa ruhlandırır.

Məktəbdə olarkən buradakı səliqə- səhman diqqətimizdən yayınmadı. M.Əliyev adına "Arazbari" xalq çalğı alətləri ansamblı, "Dünya musiqi korifeyləri", "Nəğmə dolu bir həyat", "Sevərək yaşayanlar, sevilərək ölənlər", "Məlumat guşəsi", "Gənclərimizin uğurları", "Şirvan şəhər uşaq musiqi məktəbində işləmiş direktorlar", "Məzun müəllimlərimiz", "Əlaçılar", "Görkəmli sənətkarlarla görüşlər" və s. guşələrə baxdıq.



Skripkaçılar ansamblı

**Bir daha əmin olduq ki, yüksək təşkilatçılıq qabiliyyətinə malik olan M.Dadaşovun rəhbərliyi altında fəaliyyət göstərən kollektiv bundan sonra da neçə- neçə uğurlara imza atacaqdır...**

**● Tural**